SÖZÜN SEMANTİK STRUKTURU VƏ MƏNA TIPLƏRI - Səbinə MƏMMƏDOVA MƏMMƏD QIZI[47]

Sözün mənasını yalnız onun əşyavi-məntiqi münasibətlərinə görə təyin etmək cəhdi məna və anlayışın eyniliyini etiraf etmək deməkdir, bu isə zənnimizcə düzgün deyil, çünki anlayış - məntiq kateqoriyasıdır. Anlayış materiyanın yüksək məhsulu olan beynin məhsuludur, onun funksiyasıdır. Sözün mənası isə dilçilik kateqoriyasıdır. Y.M.Qalkina-Fedoruk düzgün olaraq qeyd edir ki, «məna dedikdə, sözə şamil edilən fikri (düşüncəni) başa düşmək lazım gəlir» [8, 28]. Həmin sözə verilən məna yalnız sırf anlayış əhəmiyyətinə deyil, həm də əlavə mənaya malikdir. Bu əlavə mənalar isə sözün emosional-ekspressiv elementlərindən ibarət olur. İnsanın psixi fəaliyyəti üç amilə əsaslanır: əqli, emosional və iradi. İnsanın emosional və iradi fəaliyyətini onun əqli fəaliyyətindən ayırmaq mümkün olmadığı kimi onun fitri hissləri ilə gerçəkliyi rasional dərk etməsini də inkar etmək olmaz İnsanın hiss və emosiyalarından kənarda heç bir informasiya, heç bir əqli fəaliyyət ola bilməz. Y.M.Qalkina-Fedoruk tamamilə haqlıdır ki, «əqli fəaliyyət emosional və iradi fəaliyyətlə bağlıdır və hər cür emosiya və iradənin mənası var» [9, 105].

Sözün ekspressiv-emosional elementləri bir tərəfdən onun semantik quruluşunun dəyişməsinə təsir edir, digər tərəfdən isə sinonimik sıranın tərəflərini sərhədləşdirməyə imkan verir.

Biz o konsepsiyadan çıxış edirik ki, sözün leksik mənasına anlayışların ifadəsinin təzahür etdiyi dil mühiti ilə yaranan və şərtlənən dil forması kimi baxılır. Leksik mənanın tərkibi mürəkkəbdir və yalnız onun məntiqi-maddi münasibətləri ilə bitmir. Leksik məna əslində kompleks kəmiyyətdir. Təsadüfi deyildir ki, dilçilərin əksəriyyəti leksik mənaya daxil olan aşağıdakı komponentləri qeyd edirlər: 1) əşya-anlayış münasibətləri; 2) funksional keyfiyyətlər; 3) emosional-üslubi çalarlıq.

Dilçilik ədəbiyyatında distribusiya «verilən dil vahidinin rast gələ biləcəyi bütün əhatələr məcmuu» kimi təyin edilir. Həmin «əhatələr məcmuu» sözün, yəni

[47] filologiya elmləri namizədi, Bakı/AZERBAYCAN

birləşmə qabiliyyəti və i.a., mülahizənin ayrı-ayrı hissələrinin bir-birinə nisbətdə yerləşməsi nöqteyi-nəzərindən sözün tətbiqi xassəsi qarşı-qarşıya qoyulur [4, 137].

Distribusiya metodu kontekstoloji metodla birgə çoxmənalı sözün mənasını dürüstləşdirməyə imkan verir və bununla da tədqiqat prosesinə obyektivlik elementi gətirir ki, bu da öz növbəsində sözün semantik strukturunu daha dəqiq öyrənməyə kömək edir.

Çoxmənalılıq, omonimlilik, sinonimlik və kontekst problemləri söz mənası problemi ilə sıx bağlıdır ki, onların da daxili əlaqə və münasibətlərinin araşdırılması xeyli zəruridir.

Sözün əsas nominativ mənasını akademik V.V.Vinoqradov sözün sərbəst mənası adlandırır [18, 12]. O, yazır ki, «sözün bir neçə sərbəst mənası ola bilər və obyektiv gerçəkliyin müxtəlif əşya və hadisələri onlarla birbaşa əks olunur (müqayisə et: şapka - baş»-geyimi və iri hərflərlə yazılmış bir neçə məqalə üçün ümumi olan sərlövhə»). Çoxmənalı sözün sərbəst nominativ mənalarından biri onun əsas mənası olaraq qalır, halbuki başqa mənaları nominativ törəmə mənalardır [18, 13].

V.V.Vinoqradov sərbəst mənadan başqa, sözün frazeoloji əlaqəli mənasını da ayırır. Sərbəst məna ilə frazeoloji əlaqəli məna arasındakı fərq ondan ibarətdir ki, sözlərin sərbəst mənalarını işlədilməsi «adətən məhdudlaşmır və dar frazeoloji birləşmə çərçivəsi ilə əlaqələnmir. Əksinə sözün frazeoloji cəhətdən bağlı mənaları öz əlaqələri ilə məhdudlaşır» [18, 17].

Akademik V.V.Vinoqradovun işləyib hazırladığı sözün leksik mənalarının əsas tipləri dilçilərin əksəriyyəti tərəfindən qəbul olunmuş və dilçilik ədəbiyyatında o qədər geniş yayılmışdır ki, onlar haqqında yazılmış bütün elmi əsərləri sadalamağa belə ehtiyac yoxdur. Lakin sözdə bir neçə mənanın ola biləcəyini inkar edən dilçilər də vardır.

A.A.Potebniyanın fikrincə «iki məna olan yerdə iki söz var» [11, 198]. L.V.Şerba təkidlə «...verilən fonetik sözün neçə mənası varsa, bir o qədər də söz var...» fikrini müdafiə edir [12, 89-117]. V.A.Zvegintsev də sözlərin ayrı-ayrı mənalarını sözün vahid mənasının leksik-semantik variantları olan potensial tip birləşmələr adlandırır. Özünün «Теоретическая и прикладная лингвистика» adlı əsərində V.A.Zvegintsev əvvəllər təklif etdiyi «Leksik-semantik variant» terminini uğursuz hesab edir. Onun əvəzinə o, həmin mənada «monosema» terminini təklif edir [15, 89]. Bu müddəadan göründüyü kimi, V.A.Zvegintsev də sözdə bir neçə mənanın ola biləcəyi fikrini qəbul etmir [23, 87].

Bizim fikrimizcə, adı çəkilən dilçilərin nəzəriyyələrində iki müxtəlif anlayışın qarşılaşdırılması baş verir: məna bir dil faktı kimi və məna bir nitq faktı kimi qarşılaşdırılır. Söz nitqdə tətbiq edilərkən həqiqətən onda iki mənanın yanaşı mövcudluğu ola bilməz, çünki bu və ya digər kontekstdə çoxmənalı sözün yalnız bir mənası realizə olunur. Çoxmənalılıq hadisəsi dil faktıdır. Bu haqda H.Ə.Həsənov yazır: «Leksik mənanın birinci xüsusiyyəti onun nominativliyidir. Lakin mənanın bir cəhəti məfhumu adlandırmaqdır, çoxmənalılıq bir sözün köməyi ilə müxtəlif mənaları adlandırır. Məzmunda ifadə olunan məfhumların bütün əlamətlərində birləşən məna əsas olur. Belə ki, baş sözü bədənin bir üzvü mənada əsas, o biri mənalarda törəmədir. Sözdə bir əsas, bir neçə törəmə məna olur» [5, 21].

Dil sistemində sözün bir neçə mənası ola bilər və onlar da öz aralarında müəyyən ilkin mərkəzi məna ilə bağlıdır. Həmin sözün bütün əlavə mənaları öz ilkin mərkəzi mənasının törəmələridir. Eyni bir səs kompleksinin müxtəlif mənaları arasında hiss olunan semantik əlaqə saxlandıqca, həmin səs kompleksi bir söz olaraq

qalır (məsələn: «head» sözünün ilkin mənası insanın başıdırsa, sonradan hər hansı bir əşyanın yuxarı hissəsi də «head» adlanır). Lakin adı çəkilən səs kompleksinin müxtəlif mənaları arasında semantik məna itdikdə və ya hiss olunmadıqda eyni cür səslənən, lakin müxtəlif mənalara malik omonim sözlərlə rastlaşırıq. Yəni adı çəkilən səs kompleksində semantik əlaqə itmiş, hər bir məna ayrıca söz kimi çıxış etmişdir. İngilis dilindəki «board» sözü buna klassik nümunədir: 1) board - taxta, stol, bort, 2) board - idarə, şura, kollegiya. «İdarə», «şura», «kollegiya» mənası tarixən «taxta», «stol» mənaları əsasında təşəkkül tapmışdır. Lakin vaxt ötdükcə ilkin və törəmə mənalar arasında semantik əlaqə itmiş və «board» sözü iki sözə omonimlərə ayrılmışdır. Digər tərəfdən, Charles W.Kreidlerin qeyd etdiyi kimi, «Leksikoqraflar və semantika ilə məşğul olan mütəxəssislər söz mənasının geniş formalarının omonim və ya çoxmənalılıq olması barədə müəyyən qərara gəlməlidirlər. Çoxmənalı leksemin bir neçə yaxın mənaları olur. Misal üçün adamın, kompaniyanın, stolun, çarpayının, kahının və ya kələmin başı dedikdə «head» ismi bir neçə yaxın əlaqəli mənalarda işlədilir. Əgər bir anatomik referenti əsas götürsək, digər mənaların əsas sözdən törədiyini görə bilərik, ...» [17, 52].

Hər hansı çoxmənalı sözün mənası kontekst vasitəsilə dəqiqləşdirilir və konkretləşdirilir. Sözün düşdüyü kontekst, mühit ona daha dəqiq məna verir. Söz nə qədər çoxmənalı olur olsun, mətn daxilində, nitq axını və dialoqda o, adətən tamamilə ayrı məna alır. Kontekst sözün polisemiyasını kənar edir və hər dəfə onu müəyyən bir istiqamətə yönəldərək realizə edir.

Sözün mənasının mətn daxilində və ya cümlədə - kontekstdə müəyyənləşdirilməsi barədə Charles W.Kreidler yazır: «...each meaning is determined by its linguistic context» «... sözün mənası özünün dilçilik konteksti ilə müəyyənləşir» [17, 47].

Sözün çoxmənalılığının kontekstdə və ya mətn daxilində aradan qalxması barədə N.Məmmədov və A.Axundov qeyd edirlər ki, sözlər nə qədər çoxmənalı olsa da, onların mətn daxilində, kontekstdə bir mənası olur. Başqa sözlə desək, mətn daxilində sözün çoxmənalılığı aradan götürülür [14, 138].

Kontekst problemini V.V.Kolşanskinin, E.M.Mednikovanın, Z.N.Verdiyevanın, A.Qurbanovun, Charles W.Kreidlerin, Stephen C.Levinsonun və digər dilçilərin əsərlərində geniş şərh olunur [7, 410].

Sözün məna çalarları ilə onun fərdi-okkazional mənası arasında mühüm fərqi xüsusi qeyd etmək lazımdır. Sözün məna çaları ümumxalq səciyyəsi daşıyır, hamı tərəfindən eyni şəkildə işlədilir. Sözün fərdi mənası isə yalnız bir və ya bir neçə müəllifin dilində işlənir, hər halda ümumi səciyyə daşımır.

Fərdi mənalar dilçilikdə mətni (kontekstual) məna da adlandırılır. Haqqında danışdığımız bütün mənalar (məna çalarları da daxil olmaqla) birlikdə sözün məna quruluşunu təşkil edir. Lakin mətni mənalar bu məna quruluşuna daxil deyil. Mətni məna yalnız müəyyən mətnlə əlaqədar işlənilən mənadır ki, başqa mətnlərdə bu mənaya təsadüf edilmir. Sözün mətni mənası həmin sözün məcazi işlənməsi ilə bağlıdır. Bu və ya digər müəllif sözü ümumxalq dilindəki mənada deyil, öz istədiyi, lazım bildiyi mənada işlətməyə cəhd edir, sözü öz məqsədinə tabe etməyə çalışır, ona obyektiv məna verir. Halbuki sözlər əslində obyektiv mahiyyətə malikdir. Sözün mətni mənası fərdi mənadır. Odur ki, mətni məna dilin digər üslublarına nisbətən bədii üslubda daha geniş yayılmışdır [16, 121-122].

Yuxarıda qeyd edildiyi kimi, «kontekst» istilahı altında «sözün düşdüyü mühiti» başa düşülür. Kontekst sözün mənasını yalnız bir cümlə daxilində

müəyyənləşdirib dəqiqləşdirməklə qalmır, iki və daha artıq cümlə, abzas və ya bütöv bir fəsil daxilində də söz mənasını təyin edir. Kontekst haqqında A.V.Kunin, G.V.Kolşanski və A.Qurbanov [7, 96] da eyni fikir söyləyirlər.

G.V.Kolşanski üçün kontekst «hər hansı dil vahidinin məzmununun birmənalı şəkildə təzahür etdiyi formal olaraq təsbit olunmuş şərtlərin məcmuudur» [3, 48].

N.N.Amosova hesab edir ki, kontekst «... göstərici minimuma (yəni tələb olunan semantik göstəricini özündə ehtiva edən nitq zəncirinin elementinə) malik sözün (yəni mənasının nisbi işlənməsi zamanı konteksti hissələrə ayıran sözün) semantik birləşməsidir [6, 28]. N.N.Amosova «dar» kontekst anlayışını daha müfəssəl şərh edir.

Mahiyyət etibarı ilə dar kontekst «dəyişən söz birləşməsi və dəyişən cümlədir» [3, 2].

Qeyd edilməlidir ki, dar kontekstin iki müxtəlif növü var: leksik kontekst və sintaktik kontekst [17, 41-57]. Leksik kontekst sözün nitq prosesində birləşdiyi semantik şəkildə realizə olunan sözlərin məcmuudur. «Sintaktik kontekst verilən sözün, söz birləşməsinin və ya budaq cümlənin tətbiq olunduğu sintaktik kontekstdir».

Sintaktik kontekst ingilis dili fellərinin dəqiqləşdirilməsi və konkretləşdirilməsində daha böyük rol oynayır, çünki onlar bu dilin sistemində həm təsirlilik və həm də təsirsizlik kimi qrammatik mənalara malikdir [17, 41-49].

Bununla belə, bəzi hallarda sintaktik kontekst sifətlərin mənasını da fərqləndirməyə kömək edir. Məsələn «ill» sifəti predikativ şəkildə işlənərkən «pis, yaramaz» mənasını verir.

Kontekstoloji təhlil sifətin məna strukturunu daha dəqiq aydınlaşdırmağa və dilin müəyyən inkişaf mərhələsində sözün semantik inkişafı istiqamətini müəyyənləşdirməyə imkan verir.

«...kontekst nəzəriyyəsi çox güman ki, 20-ci əsrdə semantikanın inkişafında ən təsiredici amillərdən biridir...

Bütün nəzərə çarpan araşdırmalar və müasir tədqiqatların ən məhsuldar metodları bu mənbəyə müraciət edə bilər» (13, 65).

Məlumdur ki. yeknəsəkliyin və təkrarlanmanın qarşısını almaq üçün nitqdə sinonimlərdən düzgün istifadə etmək bacarığı daha mühüm əhəmiyyət kəsb edir. Buna görə də həm yazılı, həm də şifahi nitqdə sinonimlər mülahizənin bütün leksik, üslubi və ekspressiv-emosional incəliklərini oxucuya və dinləyiciyə çatdırmaq üçün ən yaxşı ifadə vasitəsidir [17, 4, 8-9]. Məsələyə bu baxımdan yanaşdıqda, sinonimlər probleminin öyrənilməsi həqiqətən böyük elmi-praktik əhəmiyyətə malikdir.

Sinonimlik problemi həm mürəkkəb, həm də mübahisəli olmaqla son həllini tapmamış problemdir. Həmin problem ümumi dilçilik ədəbiyyatında geniş araşdırılmışdır [17, 55]. Lakin bunu da etiraf etmək lazımdır ki, indiyə qədər sinonimlərin şərhində aydınlıq və həmrəylik yoxdur. Sinonimlər haqqında dəqiq bir fikrin olmaması və həmin problemin hələ də mübahisəli olması haqda Q.B.Antruşina yazır ki, sinonimiya müasir dilçiliyin mübahisəli problemlərindəndir. Sinonim sözlər yarandığı gündən bəzi dilçilərin mübahisəsinə səbəb olmuşdur. Sinonim sözlərin arasında əlaqələrin təbiəti və mahiyyəti dilçilikdə qızğın mübahisə doğurmuş və müxtəlif dilçilik məktəblərinin nümayəndələri onları tamamilə müxtəlif baxımdan şərh etmişlər [2, 184].

Sinonimlərin fərqləndirilməsi və təsnifatı prinsipləri barədə də yekdil fikir mövcud deyildir. Sinonimlərin öyrənilməsinin vahid metodikası da yoxdur.

V.A.Zvegintsev yazır ki, «sinonimlər ənənəvi şəkildə şərh olunduğu kimi, dildə ümumiyyətlə, yoxdur» [21, 137-138]. Onun fikrincə sözlər yalnız onların valentliyi mütləq mənada üst-üstə düşdükdə sinonim olur [21, 24].

V.A.Zvegintsevin sinonimlər probleminə bu cür baxış, görünür, ona əsaslanır ki, o, sözün ekpressiv-emosional və üslubi elementləri onun leksik mənasından ayırır. Lakin bu fikirlə razılaşmaq çətindir. Dildə sinonimlər obyektiv olaraq mövcuddur və bu fikir bütün dilçilər tərəfindən etiraf olunur, [23, 125] lakin hələ də sinonim anlayışı barədə tutarlı fikir mövcud deyil. Bu başqa məsələdir ki, sinonimlik problemi hələ tam həll edilməmişdir. Hətta onu fiksiya hesab edənlər də vardır.

İngilis və Azərbaycan dillərində sifətlərin bir-birinə sinonim mikrosistemlərinə nəzər salaq. Sinonim mikrosistemində ümumi mənası «sakitlik» olan sifətlər birləşir. Bü'halda sinonimik cərgə sistemli xarakterə malik tarixən formalaşmış sözlərin qrupu kimi qəbul edilir. Yuxanda qeyd etdiyimiz kimi, dil vahidləri onların denotativ mənalarının vəhdətinə görə sinonimik cərgədə birləşir. M.F.Palevskayanın göstərdiyi kimi, «Sinonim cərgəyə ... yalnız öz müstəqim mənasında olan sözlər deyil, habelə obyektiv gerçəkliyin bu və ya digər hadisəsini öz ikinci məcazi mənasında əks etdirən sözlər də, əgər həmin məna ümumxalq tərəfindən işlənib sabitləşmişdirsə sinonim cərgəyə daxil edilməlidir» [10, 11]. Qeyd etdiyimiz sifətlər çoxmənalıdır, məhz buna görə də bu və ya digər sifət öz müstəqim mənasında bir sinonimik sıraya daxil olur, məcazi törəmə mənasında isə digər və ya başqa sıralara qoşulur.

Biz sinonimik cərgələri sinonimliyin iki mühüm əlaməti əsasında müəyyənləşdirməyi nəzərdə tuturuq:

semantik mənanın ümumiliyi əsasında

qismən qarşılıqlı əvəzetmə əsasında [20, 50], semantik-məntiqi üsulla [20, 139] (bunun da əsasını eyniləşdirmə (identifikasiya) prinsipi təşkil edir).

Biz definisiya təhlili metodundan da istifadə edirik, çünki həmin prinsip O.V.Afanasyevanın, S.A.Serovanın, A.V.Kutsenkonun, L.V.Zıkovanın, X.N.Tuqujekovanın əsərlərində geniş tədqiq olunınuş və elmi cəhətdən özünü doğrultmuşdur [19, 20].

Biz müvafiq olaraq hər sinonimik sırada dominant kimi, yalnız bir sifəti - «sakit» sifətini əsas götürürük və «o da bütün cərgənin ümumi mənasını» dəqiq ifadə edir [16, 20]. Həmin ümumi məna bütün kontekstlərdə verilən sinonimik sıranın qalan üzvlərinin mövqeyini tuta bilir. Bütün yuxarıda deyilənlərə əsaslanaraq biz araşdırılan sifətləri aşağıdakı sinonimik cərgələrdə birləşdirməyi məqsədəuyğun hesab edirik. Qeyd edək ki, hər dominantdan sonra sinonim sırasının tərəfləri bir-birinin ardınca işlənmə tezliyi prinsipi ilə sadalanır.

I. Ümumi mənası «sakit» olan sifətlərin sinonimik mikrosistemi sırası;

1. İngilis dilində «silent» və Azərbaycan dilində «sakit» sözləri dominant olan sinonimik sıra:

İngilis dilində: - silent, calm, quiet, composed, serene, still, motionless.

Azərbaycan dilində: - sakit, dinc, fağır, lal, hərəkətsiz.

İngilis dilində: - tranquil, placid, serene, halcyon.

Azərbaycan dilində: - sakit, mülayim, həlim və s.

2. İngilis dilində «quiet» və Azərbaycan dilində «sakit» sözləri dominant olan sinonimik sıra:

İngilis dilində: - quict, calm, peaceablc, peaceful, taciturn. Azərbaycan dilində: - sakit, mülayim, həlim, dinc.

3. İngilis dilində «gentle» və Azərbaycan dilində «incə», «nəcib» sözləri dominant olan sinonimik sıra:

İngilis dilində: - gentle, tender, placid, polite, soft, mild.

Azərbaycan dilində: - incə, nəcib, zərif, mülayim, həlim, yumşaq.

Hər sinonimik sıranın üzvü müəyyən ümumi denotativ məna ilə birləşmiş olsa da, onların məna tutumu və birləşmə əmələ gətirmək qabiliyyəti eyni deyildir.

Buna görə də bəzi törəmə mənalarda bu və ya digər sinonimik sırada sinonimlik iki və ya üç sinonim üzv ilə məhdudlaşır. Nəticədə yuxarıda göstərilən bəzi sinonimik sıralar çərçivəsində öz tutumuna görə daha kiçik sinonim qruplar yaranır. Onlar aşağıdakı tərzdə qruplaşır:

Birinci mikrosistemin birinci sinonimik sırasında İngilis dilində: - silent, motionless, as gentle as a lamb (sakit, hərəkətsiz, quzu kimi, dinc və s.)

Azərbaycan dilində: - sakit, quzu kimi, lal və hərəkətsiz, dilsiz-ağızsız.

İkinci mikrosistemin ikinci sinonimik sırasında:

Azərbaycan dilində - sakit, odsuz-alovsuz ailə, ailə həyatı; yumşaq ahəng-səs haqda; səssiz-səmirsiz, kimsəsiz - küçə, qəsəbə və s. haqqında; lal su, sular və s.

Üçüncü mikrosistemin birinci və ikinci sinonim sıralarında:

İngilis dilində: quiet, speechless, noiseless, soundless, motionless.

Azərbaycan dilində: sakit, lal-dinməz, dava-dalaşsız, səssiz-küysüz və s.

Dördüncü mikrosistemin birinci və ikinci sinonim sıralarında:

İngilis dilində: gentle, soft, polite, smooth.

Azərbaycan dilində: nəcib, yumşaq, həlim, məlahətli, həzin, ahəstə və s. Qeyd edək ki, biz sinonimləri qiymətləndirər-kən onları söz kimi anlamağa əsaslanırıq, çünki onlardan birini başqası ilə şərh etmək olar və bu halda onların arasındakı əlaqə vasitəsiz olur. Bir söz bilavasitə bir başqası ilə şərh edildikdə (məsələn: cosy - comfortable): bəzi hallarda hətta dolayısı ilə bir söz başqası ilə yalnız üçüncü söz vasitəsilə şərh olunur (məsələn: comfortable - convenient)» [20, 15].

ƏDƏBİYYAT:

Axundov A., Məmmədov N. Ümumi dilçilik.

Antrushina G.B., Afanasyeva O.B., Morozova N.M. English lexicology. M., Deofa 2001, 288 p.

Амосова Н.Н. Основы английской фразеологии. Л., Издательства МГУ, 1963, 207 с.

Ахматова О.С. Словарь лингвистических терминов. М., Советская Энциклопедия, 1966, 606 с.

Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1988, 306 s.

Колшанский Г.В. О природе контекста. Вопросы языкознания, 1959, №4, с.47-49.

Qurbanov A.M. Ümumi dilçilik. II c., Bakı, Maarif, 1993, 548 s.

Галкин-Федорук Е.М. Слова и понятие. М.: Учпедгиз, 1956, 54 с.

Галкин-Федорук Е.М. Об экспрессивности и эмоциональности в языке. В книге: Профессору Московского Университета акад. В.В.Виноградову. М., Из МГУ, 1958, с.103-124.

Полевская М.Ф. Проблема синонимического ряда, его границ и возможности выделения доминанты. В книге: лексическая синонимия. М., Наука, 1967, с.94-104.

Потебня А.А. Из записок по русской грамматика, т.IV, М., Л., Изд-во АН СССР, 1941, 318 с.

Шерба Л.В. Опыт общей теории лексикографии // Известия ОЛЯ АН. ССР, М., 1940, с.89-177.

To the Science of Meaning, Oxford Blackuell, 1964, 278 p.

Учебное пособие. Ленинград, 1972, 56 с.

Уфимцева А.А. Опыт изучения лексики как систем. М., Изд. АН СССР, 1962, 285 с.

Verdiyeva Z.N., Ağayeva F., Adilov M. Azərbaycan dilinin semasiologiyası. B., Maarif, 1979, 306 s.

Verdiyeva Z.N. Azərbaycan dilində leksik sinonimlik. Bakı, APİ nəşriyyatı, 1988, 63 s.

Виноградов В.В. Основные типы лексических значении слов. Журн. Вопросы языкознания. 1953, №5, с.3-29.

Вилюман В.Г. Английская синонимика. М., Высшая школа, 1980, 128 с.

Виляман В.Г. Существительные-синонимы в английском языке.